

# ULU ÖNDƏRİN DİRÇƏLTDİYİ GƏNCƏNİN İNTİBAHI...



*Müasir Azərbaycanın bütöv bir inkişaf epoxası Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ilin iyul ayından başlanan bu şərəfli dövr özündə müasir tariximizin qürur doğuran səhifələrini cəmləşdirib. Fenomen şəxsiyyət Heydər Əliyev cəbhədə ataşkəsə nail olmuş, Azərbaycanın haqq səsinə dünya dövlətlərində inam yaratmış, qardaş qırğınının qarşısını almış, müstəqilliyə nail olmuş, bazar iqtisadiyyatına keçidi təmin etmiş, milli adət-ənənələrə qayğı göstərmiş, mükəmməl Konstitusiya yaratmış, ordu quruculuğunun başlanğıcını qoymuş, milli ideologiyanın ən mühüm istiqamətlərindən olan azərbaycançılığın aşılanmasına nail olmuş, neft strategiyasının banisi olmuş, bütün sahələrdə tərəqqiyə imza atmışdır.*

Dahi şəxsiyyət əhalinin bütün təbəqələrinə, xüsusilə siyasi qüvvələrə və partiyalara xitabən deyirdi: "Kim müxalifətdə durursadursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın". Ölkəmizin çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri vardır. Bu mənada ulu öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Dünyaşöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə nu təmin etmək üçün yeni müəssisələrin yaradılmasını əsas məqsəd kimi qarşıya qoymuşdu.

Xalqımızın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə 1969-1982-ci illərdə respublikada 250-dən çox zavod, fabrik və digər istehsal müəssisələri, 20 milyon kvadratmetr mənzil sahəsi, yüzlərlə məktəb, uşaq bağçası, klub, xəstəxana, istirahət evləri tikilib istifadəyə verildi. Bakının ətrafında yeni mikrorayonlar, Badamdar, Əhmədli, Günəşli, Hövsan və sair kimi yeni yaşayış massivləri salındı. 1983-cü ildə Bakı-Qroznı neft kəməri-

üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alıb. Onların əksəriyyəti bu gün müstəqil Azərbaycanın iqtisadiyyatının, elminin, təhsilinin inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edir.

XX əsrin 70-80-ci illərində ulu öndərimizin rəhbərliyi altında təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksəkixtisaslı mütəxəssislərin, o cümlədən hərbi kadrların yetişdirilməsi gələcək dövlət

digər xeyirxah işlər o illərin yadigarıdır. Suölçən cihazların İttifaq üzrə baş müəssisəsi burada yerləşirdi. Yeni Gəncə yaşayış massivi salındı, Gəncə və Kəpəz rayonları yaradıldı, qədim şəhərin tarixi adı özünə qaytarıldı. Bu isə o dövrdə böyük risk tələb edirdi. Qədim Gəncənin Nizami poeziya günləri elə o vaxtdan xoş bir ənənəyə çevrildi. Üç yüz hektar sahəni əhatə edən, Qafqazda ərazisinə görə ən böyük olan "Xatirə parkı" əsl seyrangaha çevrildi. Yetminci illərdə Azərbaycan Politexnik

ləbi ilə doğma Azərbaycana qayıtdı. O keşməkeşli, olduqca narahat illərdə bütövlükdə Azərbaycanın, eləcə də Gəncənin xilas edilməsi üçün Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Əslində qayıdışın, qurtuluşun bünövrəsi məhz Gəncədə qoyulmuşdu.

1993-cü ilin qanlı-qadalı 4 iyun günlərini yaxşı xatırlayırıq... O dövrün naşı, səriştəsiz rəhbərlərinin təqsiri üzündən qədim şəhər dağılıb məhv olmaq üzrə idi. Hər yerdə xaos, anarxiya hökm sürür, silahlı dəstələr necə deyərlər, at oynadır-

ilə ucaldılan möhtəşəm Olimpiya İdman Kompleksinin açılışı oldu.

Gəncənin iqtisadi-sosial yüksəlişinin yeni mərhələsi başlandı. Gəncə sıçrayışla çiçəkləndi, vətəndaşların firavan həyatı təmin edildi. Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı ulu öndər Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidmətlərindən biri də Azərbaycanın gələcək taleyində əvəzsiz rolu, milləti və dövləti qarşısında müstəsna xidmətləri cənab

Gəncə sakinlərinin həyat tərzini yaxşılaşdırmaq həmişə Azərbaycan rəhbərliyinin diqqət mərkəzində olmuşdur". Bu, həqiqətən də belədir. Dövlətimizin başçısı İlham Əliyevin xeyir-duası ilə istifadəyə verilmiş nəhəng müəssisələrin istifadəyə verilməsi, bu gün ölkəmizə və Gəncəyə yetərincə töhfə verir. Kifayət qədər iş yerləri açılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev ölkəmizin perspektiv inkişafı üçün qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirmiş, Azərbaycanı ən müasir və inkişaf



müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Buna görə də ümummilli liderimizin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrünün hər anı siyasi təqvimimizdə özünəməxsus yerə malikdir.

Bəli, tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin nadir idarəçilik keyfiyyətləri, xarizmatik liderlik cəhətləri, böyük vətənpərvərliyi ötən əsrin 70-ci illərindən etibarən milli ideyanın yüksəlişinin təmin edilməsində misilsiz rol oynayıb. 1969-cu ildən başlayaraq Azərbaycan iqtisadiyyatının gücləndirilməsi ulu öndərimizin siyasi xəttinin əsasını təşkil edirdi. Həmin illərdə isə iqtisadi vəziyyət acınacaqlı idi, ölkəmiz keçmiş SSRİ-də ən geridə qalmış respublikalardan biri idi. Sənaye və kənd təsərrüfatı sahələrinin günün tələblərinə cavab verməməsi əhalinin güzəranının getdikcə pisləşməsi ilə nəticələnmişdi. Baxmayaraq ki, ölkəmizin imkanları yetərincə idi, ancaq təbii sərvətlərimiz digər müttəfiq respublikaların inkişafına yönəldilir, Azərbaycan isə kasıbçılığa sürüklənirdi. Nəticədə ötən əsrin 50-ci illərindən sonra SSRİ-də başlanan sənayeləşmə Azərbaycandan yan keçir, ölkədə işsizlərin sayı artır, gənc əhalinin bir qismi iş və çörək dalınca ittifaqın müxtəlif şəhərlərinə üz tuturdu. Məhz bu baxımdan görkəmli dövlət xadimi respublika əhalisinin məşğulluğu-

nin, 1985-ci ildə Dərin Dəniz Özülləri Zavodunun, Bakıda "Ulduz" Elektrik Cihazqayırma, Sumqayıtda Məişət Kompressorları zavodlarının və digər sənaye obyektlərinin istifadəyə verilməsi Azərbaycanda əhalinin rifahının yaxşılaşmasına ciddi təsir göstərdi. Sənayedə əmək məhsuldarlığı 2,1 dəfə artdı, 581 adda yeni tipli maşın, avadanlıq və cihaz nümunələri yaradıldı. 1056 adda mühüm sənaye məhsulunun kütləvi istehsalına başlanıldı, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış məntəqə, istehsal sahəsi istismara verildi.

Beləliklə, Azərbaycan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrildi. Azərbaycan xalqının böyük oğlu 1969-1982-ci illərdə milli kadrların hazırlanması istiqamətində mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına da xüsusi diqqət yetirdi. Təsadüfi deyil ki, həmin illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. Ümummilli liderimizin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılıb, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılıb. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas

müstəqilliyimiz üçün zəruri intellektual potensial yaradıb. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisidir. Haqlı sual yaranır, bəs o zaman qədim Gəncənin vəziyyəti necə idi? İqtisadi tənəzzül, nizamsızlıq, işsizlik, hərc-mərclik həddini aşmış, sosial problemlər insanları sarsıdırdı. Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişi ilə Gəncənin də yeni həyatı başlandı. İllər boyu durğunluqda inamları sarsılmış insanların qəlbinə ümid, gözünə işıq gəldi, həyata, yaşamağa inam artdı. Elə ilk günlərdən respublika rəhbərinin Gəncəyə xüsusi qayğı və diqqəti açıq-aydın duyulurdu.

1970-ci ilin aprel ayında Heydər Əliyev Gəncəyə gəldi. Şəhərin həyatı ilə ətraflı tanış oldu, müəssisələri gəzdi, ziyalılarla görüşdü, durğunluğun səbəblərini araşdırdı, yüksəlişin yollarını müəyyən etdi. Bu unudulmaz səfərdən sonra qədim diyarın yeni həyatı, əsl yüksəlişi, tərəqqi dövrü başlandı. Gəncə şəhərində neçə-neçə xoş niyyətli işlərin təməli qoyuldu. Sənaye obyektləri tikildi, körpülər, bağlar, parklar salındı, elm, təhsil ocaqları istifadəyə verildi. Çini qablar zavodu, Qənnadı fabriki, Taxıl məhsulları, xalça, ət və süd kombinatları, əlvan metalların emalı zavodu inşa edildi. "Gəncə" mehmanxanası, təyyarə limanı, Yeni Gəncə və Gülüstan yaşayış sahələri, avtomobilçilər qəsəbəsi və neçə-neçə

Universitetinin Gəncə filialı (hazırda ATU adlanır) açıldı, Azərbaycan Kənd Təsərrüfatı İnstitutu üçün (indi ADAU adlanır) təhsil-tələbə şəhərciyinin əsası qoyuldu. Bilavasitə ulu öndər Heydər Əliyevin təşəbbüsü və gərgin zəhməti ilə Azərbaycanda ən müasir sənaye müəssisələrinin geniş şəbəkəsi yaradıldı. Nəhəng Şəmkir və Yenikənd su-elektrik stansiyaları tikildi. Qərb bölgəsi üçün ən vacib olan Şəmkir maşın kanalı istifadəyə verildi. Miskin vəziyyətdə olan kənd təsərrüfatı sürətli tərəqqi yoluna qədəm qoydu. Respublikanın hər yanını ucsuz-bucaqsız üzüm plantasiyaları, emal müəssisələri bürüdü. Bununla yanaşı, genişmiqyaslı enerji təchizatı və suvarma sistemləri yaradıldı. Qısa zaman çərçivəsində Azərbaycan sürətli yüksəldi. O zamankı sovetlər birliyi kimi superdövlətin ən ali mükafatları dalbadal Azərbaycana gəlirdi.

Ulu öndərin tükənməz qayğısı və diqqəti sayəsində Gəncə şəhəri, gəncəlilər həmişə bu yüksəlişin ön sıralarında olublar. Ümummilli lider Moskvaya ali rəhbərliyə gedəndə respublika həyatının hər sahəsində olduğu kimi, Gəncədə də geriləmə, tənəzzül başlandı. Bəzi bədxahlar hətta ulu öndərin adı ilə bağlı olan misilsiz işləri, nəhəng obyektləri sıradan çıxarmağa çalışırdılar. Məlum 90-cı illərin hadisələri Gəncəyə də böyük maddi və mənəvi ziyan vurdu. Nə yaxşı ki, ulu öndər xalqın təkidli tə-

dılar. Gəncənin bu ağır günlərində Heydər Əliyevin müdrikliyi, sərkərdə qüdrəti bir daha özünü göstərdi. Hadisələrin ən qızğın çağında ulu öndər qorxmadan, çəkinmədən, cəsarətlə Gəncəyə gəldi. Şiddətli atışmaların getdiyi yerlərə baxdı, vəziyyətlə ətraflı tanış oldu. Hər iki tərəfi diqqətlə dinlədi. Müdrik sözün, aydın zəkanın qüdrəti ilə atışmanın qarşısı alındı, qardaş qırğınına yol verilmədi. Qaşla göz arasında olan vətəndaş müharibəsinə son qoyuldu. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri dövründə də Gəncə məhz Heydər Əliyevin qətiyyəti sayəsində qardaş qırğınından xilas edildi. Bütün bunlar ulu öndərin doğma Azərbaycana, qədim Nizami yurduna olan əvəzsiz xidmətlərinin cüzi bir hissəsidir.

Ulu öndər Heydər Əliyevin hər dəfə Gəncəyə gəlişi şəhərin həyatında unudulmaz xoş bir hadisəyə çevrilirdi. Xüsusən 1998 və 2000-ci illərdə ölkə başçısı Gəncəyə gələndə şəhər təsərrüfatının bir sıra sahələrində vəziyyət günün tələblərinə cavab vermirdi. Təbii qazın, su və elektrik enerjisinin təchizatında qüsurlar çox idi. Bu sahədə işlərin canlandırılması üçün müvafiq təşkilatlara konkret tapşırıqlar verildi və şəhər əhalisi qısa bir vaxtda bu tövsiyələrin əməli nəticəsini gördü. 2002-ci ilin sentyabr ayında Heydər Əliyevin bu yerlərə tarixi səfəri zamanı isə Gəncəyə yeni bir töhfə verildi. Milli Məclisin deputatı İlham Əliyevin təşəbbüsü

İlham Əliyev kimi böyük şəxsiyyət və müdrik bir lider yetişdirməsi olmuşdur. Ümummilli lider Heydər Əliyev qurduğu dövlətin taleyini tapşıracağı yeni Liderin seçilməsində nümayiş etdirdiyi özünəməxsus müdrikliyin miqyası illər keçdikcə daha aydın görünür, seçimin uğuru təkzibolunmaz şəkildə öz təsdiqini tapır. Ulu öndərin 2003-cü ilin prezident seçkiləri ərəfəsində prezidentliyə namizəd İlham Əliyev haqqında dediyi "Mən İlham Əliyevə özüm qədər inanır və onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o, başa çatdıracaqdır" sözləri uzaqgörənliyin və seçimin alternativsizliyinin bariz nümunəsidir.

Çox fərəhli haldır ki, ulu öndər Heydər Əliyevin yolunu onun layiqli varisi, ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin başladığı möhtəşəm işləri yüksək bacarıqla həyata keçirir, onun arzularını hər sahədə reallığa çevirir. Ulu öndərin əsasını qoyduğu Avtomobil zavodu uzun illər istifadəsiz qalmışdı. Ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə bu çox gərəkli müəssisə işə salındı. Müxtəlif tipli traktorlar, qoşqular və sair kənd təsərrüfatı maşınları yığılır, hətta başqa ölkələrə ixrac olunur. Ulu öndər Gəncə görüşlərindən birində demişdi: "Gəncəni sənaye şəhəri etmək, Gəncəni daha böyük etmək,

etmiş dövlətə çevirmişdir. Ulu öndər Heydər Əliyevin arzularına uyğun olaraq regionda sistemli surətdə aparılan genişmiqyaslı abadlıq və quruculuq bu yerləri gülüstana çevirmişdir. Yaraşıqlı parklar, bir-birindən gözəl istirahət guşələri insanlara rahatlıq gətirir, müasir üslublu, çoxmərtəbəli binalar öz dizaynı ilə şəhərə yeni görkəm verir.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırdı: "Mən bu gün, eyni zamanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin etimadını, inamını doğrultdu. Bu gün dünya azərbaycanlıları dövlət başçısı İlham Əliyevlə fəxr edirlər. Bu inkişaf strategiyasının müəllifi, memarı, türk dünyasının fenomeni, əbədiyaşar Heydər Əliyevin ən möhtəşəm abidəsi qədirbilən gəncəlilərin ürəklərində ucaldılıb.

**Zabit XƏLİLOV, "Respublika".**